*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 9 dekabr 2017-ci il № 93 (2210) Qiyməti 25 qəpik


# Müstəqil Azərbaycan yaşadıqca, ulu öndər Heydər Əliyev də ürəklərdə yaşayacaqdır



*12 dekabr tarixi müasir dövlətçiliyimizin banisi, ümummilli liderimiz Heydər Əliyevin həyatla cismani vidalaşdığı gündür. Onun fiziki yoxluğundan neçə illər ötməsinə baxmayaraq, Azərbaycan xalqı öz xilaskarını heç zaman unutmur, daim onu ehtiramla yad edir. Tək 12 dekabr günündə deyil, adi vaxtlarda da insanlar Fəxri xiyabana gedərək onun məzarını ziyarət edir, ruhu qarşısında baş əyirlər. Ulu Öndərin əbədiləşən ömür yolunu düşünəndə belə qənaətə gəlirik ki, ömrünü xalqına həsr edən, milləti, dövləti üçün misilsiz xidmətlər göstərən rəhbərlər heç zaman unudula bilməz.*

Heydər Əliyevin Azərbaycan xalqı qarşısında böyük xidmətlərindən söhbət açanda ilk öncə 1969-1982-ci illərə, onun Sovetlər birliyi dövründə respublikamıza rəhbərlik etdiyi vaxtlara nəzər yetirmək vacibdir. Həmin illərdə yaşamış dövlət və sənət xadimləri, təsərrüfat adamları, ziyalılar daim Ulu Öndərimizlə bağlı xatirələrində belə görkəmli şəxsiyyətin müasiri olmaqdan qürurlandıqlarını bildirir və qeyd edirlər ki, onun Azərbaycana rəhbərliyi ölkəmizin tarixində əsaslı dönüş nöqtəsi olub. O vaxta kimi Azərbaycan adlı respublika nəinki dünya, hətta ittifaq miqyasında o qədər də tanınmırdı. Halbuki respublikamız ittifaqda zəngin yeraltı və yerüstü sərvətləri ilə seçilib. Amma respublikamızın adı ucqar milli əyalətlərdən biri kimi çəkilirdi. Məhz 1969-cu ilin tarixi iyul plenumunda Heydər Əliyevin respublika rəhbəri təyin edilməsi ilə Azərbaycanın tarixində sürətli inkişaf dövrü başlayıb. Qısa vaxt ərzində onun təşəbbüsü ilə mühüm sənaye müəssisələri Azərbaycanın şəhərlərində inşa edilib, təsərrüfat, elm və təhsil sahələrində qətiyyətli islahatlar həyata keçirilib.

Azərbaycan xalqının xilaskar oğlu Heydər Əliyevin ikinci hakimiyyət dövrü isə müstəqillik qazandığımız çox çətin və mürəkkəb illərə təsadüf edir. 1990-cı illər Azərbaycanın tarixinə ağır faciələrin yaşandığı bir dövr kimi daxil olub. Həmin vaxt Sovetlər birliyi süqut edəndə 15 ittifaq dövləti sırasında Azərbaycan yeganə ölkə oldu ki, ərazisinin 20 faizi işğal edildi, 20 mindən çox şəhid verdik, 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. Sovet rejiminin qəddarlığı sayəsində Azərbaycanda baş verən 20 Yanvar qırğınlarından sonra Heydər Əliyev doğulduğu Naxçıvana qayıtdı və burada xalqın iradəsi ilə Ali Məclisə rəhbərlik etməyə başladı. Məhz onun qətiyyəti və fədakarlığı sayəsində bu diyarda ölüm-itki olmadı, insanlar müdrik rəhbərin ətrafında sıx birləşərək onun timsalında xilas yolunu tapdılar.

17 noyabr 1990-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyası keçiriləndə Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə olaraq üçrəngli bayrağımız binanın üzərində dalğalandı. Məhz bu hadisə müstəqillik uğrunda mübarizə tariximizin ən parlaq səhifəsidir və bununla da milli azərbaycançılıq ideologiyasının inkişaf dövrü başlandı. Bayrağımıza, mənəvi dəyərlərimizə sədaqətini ifadə edən Heydər Əliyev fiziki varlığını təhlükə qarşısında qoyaraq öz millətinə xidmət etməyi hər şeydən üstün tutdu, bu yolda heç bir çətinlikdən, qadağadan qorxub çəkinmədi. Yalnız xalqına, millətinə sonsuz sədaqəti, məhəbbəti olan liderlər belə qətiyyətli addımlar atmağa qadirdilər.

Yeni müstəqillik yoluna qədəm qoyan Azərbaycanda dövlətçiliyi qoruyub saxlamaq üçün ölkə rəhbərliyinə təcrübəli, qətiyyətli siyasi liderin gətirilməsi olduqca vacib idi və xalqımız haqlı olaraq böyük oğluna müraciət etdi. Heydər Əliyev milyonlarla insanın arzularını ifadə edərək 1993-cü ildə Bakıya gəldi və onun Azərbaycanda siyasi hakimiyyətinin tamamilə fərqli, həlledici bir dövrü başlandı. Bu illər elə mürəkkəb dövr idi ki, ölkədə anarxiya, xaos baş alıb gedir, sərhəd bölgələrimiz təcavüzkar Ermənistan tərəfindən işğala məruz qalırdı. İqtisadiyyatı dağılmış, ordusunu yaratmağa macal tapmamış bir ölkəyə rəhbərlik etmək, sözün həqiqi mənasında, böyük məsuliyyət tələb edirdi. Məhz Heydər Əliyev belə bir məsuliyyətin öhdəsindən gələ bilərdi və gəldi də.

İlk gündən müdrik rəhbər xalqa arxalandı, xalq da ona dəstək verdi və onun ətrafında həmrəylik nümayiş etdirdi. Heydər Əliyev Azərbaycan gəncliyinə müraciət etdi, Vətənimizin təhlükədə olduğunu izah edərək millətin, dövlətin gənclərə də güvəndiyini bildirdi. Bu çağırışdan ruhlanan yüzlərlə, minlərlə gəncimiz silaha sarılıb müharibəyə yola düşdü. Artıq hər kəs bilirdi ki, dövlətin rəhbərliyi etibarlı əllərdədir və ordu müdrik sərkərdənin komandanlığı ilə idarə olunur. Həmin illərdə hərbi məhkəmə sistemində çalışan təcrübəli hakimlərdən biri deyirdi ki, Heydər Əliyevin ordu quruculuğunda qısa zamanda həyata keçirdiyi islahatlar kütləvi cinayət hallarının, xüsusən də fərarilik kimi qatı cinayətin qarşısını aldı. Məhz dövlət başçısının təşəbbüsü ilə Milli Məclis bir neçə dəfə Amnistiya aktı qəbul etdi və minlərlə gənc həbsxanadan azadlığa qovuşdu. Sonradan onların bir çoxu öz günahlarını qanları ilə yudu, Vətənimizin düşməndən qorunması uğrunda döyüşlərdə iştirak etdi. Bax, budur, xalqa rəhbərlik nümunəsi, humanizm dəyərlərinə sədaqət, bağışlamaq və etibar etmək təcrübəsi.

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Müstəqil Azərbaycan yaşadıqca, ulu öndər Heydər Əliyev də ürəklərdə yaşayacaqdır

**(Əvvəli 1-ci səhifədə)**

Ulu Öndərin müstəqillik dövründə həyata keçirdiyi çox mühüm islahatlar sırasında ordu quruculuğunda görülən işləri də qeyd etmək vacibdir. 1994-cü ilin qışında Azərbaycan Ordusunun cəbhədəki ilk uğurlu əməliyyatının müəllifi məhz Ulu Öndərdir. Cəbhə xəttindəki hərbi hissələrə, təlim meydanlarına gedən komandan əsgər və zabitlərlə görüşüb onları müqəddəs bir amal naminə - gənc müstəqil Azərbaycanın ərazi bütövlüyünün qorunması uğrunda mübarizəyə ruhlandırırdı. Həmin döyüşlərdə öndə gedən komandirlərin əksəriyyəti isə Heydər Əliyev Məktəbinin - C.Naxçıvanski adına Hərbi Liseyin yetirmələri idi. Bu təhsil ocağının ildönümü mərasimlərindən birində salonda əyləşən zabitlərə, kursantlara xitabən dahi rəhbər təsadüfi demirdi: "Sizlərə baxanda sonsuz fərəh hissi duyuram ki, mən Azərbaycanda belə bir məktəb yaratdım və bu məktəbin yetirmələri mənə doğma övladlarım qədər əzizdir".



2016-cı ilin aprel döyüşlərində qazanılan tarixi qələbəmiz ordu quruculuğunda Heydər Əliyev strategiyasının uğurlu davamı kimi qiymətləndirilir. Məsələn, elə götürək Cocuq Mərcanlını. 24 ildən sonra insanların bu yurda qayıdışı məhz Ümummilli Liderimizin siyasi kursunun təntənəsidir, çünki bu kənd hələ 1994-cü ildə Heydər Əliyevin komandanlığı ilə həyata keçirilmiş ilk uğurlu hərbi əməliyyatda işğaldan azad edilmişdi. Amma qarşıda bir neçə yüksəkliyə erməni hərbi birləşmələrinin nəzarət etməsinə görə bu kənddə yaşamaq təhlükəli idi. Nəhayət, ötən il aprelin əvvəllərində bir neçə günlük döyüş nəticəsində həmin mövqelər də ordumuzun əlinə keçdi. İndi burada yaşayan hər kəs Prezident İlham Əliyevin timsalında Ulu Öndərin layiqli davamçısını görür və onun siyasətini qətiyyətlə dəstəkləyir.

Təsadüfi deyil ki, ömrünün son günlərində, 2003-cü il oktyabrın 1-də dahi rəhbərimiz Azərbaycan xalqına müraciətində İlham Əliyevi nəzərdə tutub demişdi: "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri xalqın köməyi və dəstəyi ilə İlham Əliyev başa çatdıra biləcək". Həmin il ölkəmizdə keçirilən Prezident seçkilərində xalqımız birmənalı olaraq Ümummilli Liderimizin həyat və siyasət məktəbinin yetirməsinə səs verdi və İlham Əliyev yekdil səs çoxluğu ilə dövlət başçısı seçildi. Həmin vaxtdan ötən 14 il böyük zaman məsafəsi deyil, amma bu dövrdə xalqın, millətin gələcəyi üçün böyük miqyasda işlər görülüb, Azərbaycanda müstəqilliyin dayaqları möhkəmləndirilib və uzunmüddətli siyasi sabitlik, davamlı iqtisadi inkişaf təmin edilib. Dövlətin iqtisadi uğurları ordu quruculuğunun da inkişaf etdirilməsinə zəmin yaradıb. Azərbaycan Prezidentinin siyasi kursunun ən başlıca istiqamətlərindən biri məhz ordunun hərbi qüdrətinin artırılmasıdır. Məqsədyönlü dövlət siyasətinin nəticəsidir ki, bizim ordu regionun ən qüdrətli ordusudur və qarşısında dayanan tarixi vəzifəni - torpaqlarımızın ərazi bütövlüyünü təmin etməyə tam qadirdir.

Bu gün Azərbaycan Prezidentinin ətrafında sıx birlik nümayiş etdirən xalqımız əmindir ki, əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən yaradılan müstəqil dövlətimizin inkişafı etibarlı əllərdədir.

**"Azərbaycan Ordusu"**

# Azərbaycanın Müdafiə naziri Türkiyənin generalı ilə görüşüb



*Dekabrın 6-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahın Plan, Prinsiplər Baş İdarəsinin rəisi korpus generalı Yavuz Türkgenci ilə görüşüb.*

Görüşdə Azərbaycan ilə Türkiyə arasında hərbi, hərbi-texniki, hərbi tibb, hərbi təhsil, hərbi sənaye və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi, təlimlərin və treninqlərin sayının artırılması məsələləri, qarşıdakı vəzifələr, birgə fəaliyyət istiqamətləri müzakirə edilib.

Tərəflər hər iki ölkənin Silahlı Qüvvələri arasında əməliyyat və strateji uzlaşmanın əldə olunması, döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi, qarşılıqlı əlaqələrin inkişafı və təcrübələrin öyrənilməsi məqsədilə həyata keçirilən fəaliyyətləri yüksək qiymətləndiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, foto Natiq İSAYEVİNDİR**

# Azərbaycan ilə İtaliya arasında hərbi əməkdaşlıq məsələləri müzakirə olunub



*Dekabrın 7-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov İtaliya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Augusto Massari ilə görüşüb.*

Görüşdə regiondakı hərbi-siyasi vəziyyət, ölkələrimizin Silahlı Qüvvələri arasında və NATO proqramları çərçivəsində əlaqələrin inkişafı, eləcə də İtaliyanın silah və hərbi texnika istehsal edən müdafiə sənayesi şirkətləri ilə əməkdaşlığın perspektivləri ətraflı müzakirə olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, foto Natiq İSAYEVİNDİR**

# Minsk Qrupunun həmsədr ölkələri Ermənistan-Azərbaycan münaqişəsinə dair birgə bəyanat yayıblar

ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin təşkilatın Vyanada keçirilən 24-cü Nazirlər Şurasında iştirak edən nümayəndə heyətlərinin rəhbərləri - Rusiyanın xarici işlər naziri Sergey Lavrov, ABŞ-ın dövlət katibi Reks Tillerson və Fransanın ATƏT yanında daimi nümayəndəsi Veronika Roger Lacan birgə bəyanatla çıxış ediblər.

AZƏRTAC xəbər verir ki, bəyanatda həmsədr ölkələr Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, Helsinki Yekun Aktının prinsipləri əsasında həlli üçün vasitəçilik missiyasında birgə mövqedən çıxış etdiklərini bir daha təsdiq ediblər.

Həmsədr ölkələr Azərbaycan və Ermənistan prezidentləri arasında yüksək səviyyəli dialoqun bərpasını, eləcə də hər iki ölkənin xarici işlər nazirlərinin Vyanada keçirilən görüşünü alqışladıqlarını bildiriblər.

# Müdafiə naziri Hərbi nəşriyyat, kinostudiya və “Azərbaycan Ordusu” qəzeti redaksiyasında olub



Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Hərbi nəşriyyat, Sənədli və Tədris Filmləri Kinostudiyası, eləcə də "Azərbaycan Ordusu" qəzeti redaksiyasında olub.

Müdafiə Nazirliyinin rəhbərliyi tabelikdə olan müəssisələrdə, xidməti və inzibati otaqlarda, həmçinin kinostudiyanın çəkiliş pavilyonunda yaradılmış şəraitlə tanış olub.

Müdafiə nazirinə məruzə olunub ki, müasir texniki avadanlıqlarla təchiz edilmiş müəssisələr bütün növ çap materiallarının nəşr edilməsi, hərbi-tədris və sənədli filmlərin çəkilişi, həmçinin foto və video materialların hazırlanması imkanına malikdir.

Şəxsi heyətlə görüşən Müdafiə naziri gələcək fəaliyyətlə bağlı müvafiq tapşırıqlar verib.



*Ön xətdən reportaj*

# Hünər sənindir,




*Bir payız günündə kələ-kötür yollarında iz qoyduğum, daş-kəsəyindən tutaraq imklədiyim, ayaq açdığım, yeridiyim, qayğısız uşaqlığımı keçirdiyim doğma rayonumuza gəlmişəm. Uşaqlığımla bağlı şirin xatirələr payızın soyuğunu belə hiss etməyə imkan vermir. Yaxın-uzaq xatirələrimin təsiri ilə Azərbaycan əsgərinin görüşünə gedirik.*

Avtomobil irəlilədikcə yaşayış evləri arxada qalır və tənha avtomobil təkəri diqqətimizdən qaçmır. Bu narahatlığımızı hiss edən zabit Kamil Batıyev bildirir ki, gördüyünüz mənzərə mülki sürücülərdən birinin ehtiyatsızlığı ucbatından və təhlükəsizlik qaydalarına əməl etmədiyindən yaranıb. "Həmin avtomobil günlərin birində minaya tuş gəlir. Bu təkər də həmin hadisədən bizlərə acı xatirədi".

Bir azdan səngərə daxil oluruq. Ətrafda torpaqdan, başımızın üstündə yarıbuludlu səmadan başqa heç nə görünmür. Arada "Diqqət", "Ehtiyatlı ol" yazılarına rast gəlirik. Artıq burada hiss edirəm ki, ata yurdunun və qızılı payızın bəxş etdiyi kövrəklik arxada qalıb.

Leytenant Rahib Nəbiyev döyüş mövqeyindəki vəziyyət haqqında geniş məlumat verir: "Düşmənlə təmas xəttində yerləşən şəxsi heyətimiz üçün əsas amil Vətəni qorumaqdır. Qətiyyətlə deyə bilərəm ki, əsgərlərimiz mövqeləri sayıqlıqla qoruyurlar. Başa düşürlər ki, müharibə şəraitində olan ölkənin əsgəri də mərd və qorxmaz olmalı, Vətənini sayıqlıqla qorumalıdır. Komandanlıq da şəxsi heyətin təminatını və təchizatını daim yüksəldir. Çətin iqlim şəraitində yerləşən mövqeyimiz çoxdan payız və qış mövsümünə hazırdır".

Zabitin dediklərinə özümüz də şahid oluruq. Düşmənlə təmas xəttində əsgərlərin rahat şəraiti adama sevinc bəxş edir. Elə ilk baxışdan onların ruh yüksəkliyi, döyüş əzmi və qorxmazlığı məndə xoş təəssüratlar yaradır.

Söhbətimizin şirin yerində leytenant Rahib Nəbiyev üzrxahlıq edib, növbəni dəyişməyə gedən şəxsi heyətə təlimat vermək məqsədilə bizdən ayrılır. Fürsətdən istifadə edib zabitin verdiyi təlimatı dinləyirik: "Diqqətli, ayıq-sayıq olmaq, döyüş növbətçiliyini düzgün təşkil etmək əsgərlərimizin qarşısında duran birinci və ən vacib tələbdir. İndi bütün cəbhəboyu düşmən gündüzlər snayper müharibəsi aparır, gecələr isə mövqelərimizi iriçaplı silahlardan atəşə tuturlar. Onların hər bir təxribatını qətiyyətlə dəf edirik. Məqsədimiz düşmənə başa salmaqdır ki, bu torpaqlar Azərbaycana məxsusdur və əsgərlərimiz xalqımızın istəyini tezliklə təmin etmək arzusundadır".

Şəxsi heyət növbəni dəyişdikdən sonra əsgərlərin təəssüratlarını da öyrənirik. Samux rayonundan hərbi xidmətə çağırılan əsgər Fuad Qarayev bildirir ki, düşməndən tezliklə qisas almaq onun da əsas məqsədidir. “Bütün əsgərlərimiz də bu hisslə yaşayır. Müqəddəs torpaqlarımızı, Vətənimizi qorumaq ən uca amalımız və vəzifəmizdi. Azad və müstəqil yaşamaq istəyiriksə, torpaqlarımızı qorumağa borcluyuq”.

- Biz ayıq-sayıq olmasaq, dinc əhali daha çox atəşə tutulacaq, evlər dağıdılacaq, zəmilər yandırılacaq, - deyə əsgər Vüsal Rüstəmov da söhbətə qoşulur. - Bu gün ön xətdə döyüş növbətçiliyi aparıram. Bir əsgər kimi dövlətim və xalqım qarşısında müqəddəs borcumu yerinə yetirirəm. Döyüş hazırlığı yüksək səviyyədə olan əsgər yoldaşlarım da hər an düşmən təxribatının qarşısını almağa qadirdirlər. Düşmən artıq hiss edir ki, onun qarşısında qüdrətli, güclü bir ordu dayanıb.

Əsgər Pənah Abdullayev yoldaşının söhbətinin davamı olaraq bildirir ki, bir əsgər kimi xalqımızın hərbi ənənələrini layiqincə davam etdirməyə hər zaman hazırdır. "Səngər qəhrəmanları sevir. Əzm və rəşadətlə xidmət aparmaq əsas vəzifəmizdir. Qəhrəmanlarımızın - Mübarizin, Çingizin, Etibarın, Samidin... yolunu davam etdirməklə yeni qəhrəmanlıq səhifələrini yaradacağıq."

Əsgər Emil Rüstəmov isə qeyd edir ki, ordu həyatında qazandıqları təcrübənin hesabına aprel zəfərini təkrarlamağa qadirdilər.

Hər birimiz inanırıq ki, gücünə arxalandığımız, ümid bağladığımız Azərbaycan əsgəri Qarabağ həsrətimizə tezliklə son qoyacaq, xalqımıza böyük Qələbənin sevincini yaşadacaq. Hünər meydanı sənindir, Azərbaycan əsgəri!..

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu",
foto
çavuş
Namiq PƏNAHOVUNDUR**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

8 dekabr 2017-ci il.

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 142 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber və Paravakar kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Qaymaqlı və Qızılhacılı kəndlərində, Berd rayonunun Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi və Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Cəvahirli, Qaraqaşlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Azərbaycan-Türkiyə 10-cu Yüksək Səviyyəli Hərbi Dialoq İclasının Protokolu imzalanıb

*Bakıda keçirilən Azərbaycan-Türkiyə 10-cu Yüksək Səviyyəli Hərbi Dialoq İclası işini başa çatdırıb.*




Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbi dialoq çərçivəsində işçi qrupları Azərbaycan ilə Türkiyə arasında təhlükəsizlik, hərbi, hərbi-texniki, hərbi tibb, hərbi təhsil, hərbi sənaye və digər sahələrdə əlaqələrin geniş spektrini nəzərdən keçirib, qarşıda duran tapşırıqların yerinə yetirilməsi üçün əsas fəaliyyət istiqamətləri müəyyən ediblər.

Sonda Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Baş Qərargahı arasında Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclasının yekunlarına dair protokol imzalanıb.

## Monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, dekabrın 6-da Xocavənd rayonunun Kuropatkino kəndinin yaxınlığında Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru və Gennadi Petrika aparıblar.

## Bakıda NATO-nun Mobil Təlim Qrupu tərəfindən təlim kursu keçirilir



Azərbaycan Respublikası Müdafiə Nazirliyinin NATO ilə 2017-ci il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq proqramına əsasən, NATO-nun Brunssumda yerləşən Birləşmiş Qüvvələr Komandanlığının Mobil Təlim Qrupu tərəfindən Bakıda "Birgə əməliyyat və qiymətləndirmə" mövzusunda təlim kursu keçirilir.

Silahlı Qüvvələrin Hərbi Akademiyasında keçirilən tədbir müddətində NATO nümayəndə heyəti tərəfindən iştirakçılara "NATO-nun hərbi strukturu", "NATO-da hərbi tərəfdaşlıq", "Əməliyyat planlaşdırma prosesi", "Əməliyyatların qiymətləndirilməsi", "Məlumatların toplanılması və təhlili" və digər mövzular barədə məlumatlar verilir, eləcə də müxtəlif məşğələlər təşkil edilir.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

## ATƏT PA-nın büro iclasında münaqişələrlə bağlı beynəlxalq hüququn prinsiplərinə sadiq mövqe nümayiş etdirilib

Dekabrın 6-da Avstriyanın paytaxtı Vyana şəhərində ATƏT-in Nazirlər Şurasının 24-cü iclası ərəfəsində qurumun Parlament Assambleyasının (ATƏT PA) büro iclası keçirilib.

İclasda ATƏT PA-nın 2018-ci il üçün fəaliyyət planı, qurumun qış və yay sessiyalarının gündəliyinə dair məsələlər və digər aktual mövzular müzakirəyə çıxarılıb.

İclasın gedişi ilə bağlı sualı cavablandıran Milli Məclisin deputatı, ATƏT PA-nın vitse-prezidenti Azay Quliyev deyib: "Qapalı keçirilən iclasda qəbul edilən qərarların şərh edilməsi məqsədəuyğun olmazdı. Lakin ümumi olaraq qeyd etmək olar ki, ATƏT PA-nın Bürosu münaqişələrlə bağlı beynəlxalq hüququn prinsipləri və qurumun 2015-ci ildə Helsinkidə qəbul etdiyi qətnaməyə və bəyannaməyə sadiqliyini nümayiş etdirdi. Bu cür həssas məsələlərdə Büro ikili standartları rədd edərək, dövlətlərin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyən, etnik separatizmə yox deyən vahid mövqe nümayiş etdirib. Bu, ATƏT PA-nın etibarlılığı və bütövlüyü baxımından çox önəmli qərar oldu".

*Nümunəvi xidmət*

# "Qarabağı azad edəcəyik!"

İnsan var rastına çıxanda peşmanlıq çəkirsən. İnsan da var onunla tanışlığından fəxarət hissi duyursan. Torpaqlarımızın toxunulmazlığı uğrunda döyüşən oğullarımızın sırasında daha bir nəfəri - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Abışov Bilal Əhməd oğlunu da tanımaqdan qürur duyuram. Vətənini göz bəbəyi kimi qorumağa hazır olan, millətin mənafeyini öz mənafeyi kimi qəbul edən çavuş B.Abışov 1979-cu il iyulun 24-də Ağcabədi rayonunun Kürdlər kəndində dünyaya göz açıb.



- Göyün torpağa hər zaman yağış borcu olduğu kimi, insanın da torpağa can borcu var, - deyə çavuş Bilal Abışov söhbətə başlayır. - Düşmənlə üzbəüz mövqedə dayananda torpaqdan güc alıram. Həyatımın mənasını Vətənin, millətin mənafeyini öz mənafeyim kimi dərk etməkdə görürəm. Vətənpərvərlik elə ali bir duyğu, elə bir ürək yanğısıdır ki, bu duyğu, bu yanğı mənə qəhrəmanlıq, məğlubedilməzlik, torpağa, xalqa, dövlətə bağlılıq və yurda sevgi aşılayır. Vətənpərvərlik ən çətin anlarda belə, adamı müqəddəs amallar naminə mübarizəyə səfərbər edir, cəsarət, güc verir. Vətənpərvərlik Vətənin naminə çalışmaq, Vətəni qorumağa hər an hazır olmaq deməkdir.

Çavuş Bilal Abışov onu da bildirir ki, özündən böyük qardaşlarının yolunu davam etdirməklə qürur hissi keçirir. "Valideynlərimizdən aldığımız tərbiyə, Vətənə, torpağa bağlılığımız altı qardaşdan üçünün həyatını hərbi ilə bağladı. Qardaşlarımdan birinin - baş çavuş Seymur Abışovun nəsibi şəhidlik oldu. Qubadlının, Laçının müdafiəsi uğrunda döyüşdü və Horadizdə minaya düşərək həlak oldu. Digər qardaşım Əlvan Abışov da Azərbaycan Kooperasiya Universitetində təhsilini yarımçıq qoyaraq torpaqlarımızın azadlığı uğrunda mübarizəyə qoşulan ilk könüllülərdən biri olub. Bu gün o, I qrup Qarabağ əlilidi. Bibim oğlu Faiq İbrahimov isə 1994-cü il yanvarın 4-dən 5-nə keçən gecə itkin düşdü. Həyat elə gətirib ki, bu gün onun itkin düşdüyü yerdə hərbi xidmət edirəm. Hərbçi kimi xidmət etməkdə əsas məqsədim torpaqlarımızın azad edilməsində yaxından iştirak etmək, qardaşlarımın, doğmalarımın simasında minlərlə oğul və qızlarımızın qisasını almaqdı. Ona görə də bu gün Azərbaycan Ordusunun sıralarındayam".

Çavuş Bilal Abışovun hərbi həyatı ordumuzun aprel zəfərindən sonra gerçəkləşib. Ona görə də söhbətimiz qeyri-ixtiyari həmin döyüşlərə yönəlir. Həmsöhbətim hesab edir ki, aprel zəfəri Azərbaycan Ordusunun döyüş qabiliyyətinin təsdiqidir. "Aprel zəfəri bizləri Qarabağa səsləyən növbəti qələbələrin müjdəçisidi. Əbəs yerə deyil ki, Ali Baş Komandanımız aprel döyüşlərinə xüsusi önəm verərək, onu şanlı tarixi miz adlandırdı. Dövlətimizin başçısı tərəfindən verilən bu yüksək dəyər qələbələrimizin davamlı olacağına, bir qarış torpağımızın belə işğalda qalmayacağına dair mesaj kimi qiymətləndirilməlidir. Çünki Qarabağsız Azərbaycan təsəvvüredilməzdir. Qarabağ Azərbaycanımızın haqq səsidi, dünənidi, bu günüdü və sabahıdı. Onu azad etmək isə şərəf borcumuzdu".

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu",
foto
çavuş
Namiq PƏNAHOVUNDUR**

*Vətənpərvərlik*

# "Gənclərin hərtərəfli inkişafı üçün dövlətimiz hər cür şərait yaradıb"

*Hər bir xalqın inkişafında sağlam, vətənpərvər gənclik mühüm rol oynayır. Dövlətçiliyin, müstəqilliyin möhkəmlənməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli gənc kadrların yetişib avanqard qüvvəyə çevrilməsindən çox asılıdır. Gənc nəslin tərbiyəsi isə ailədə, yaşadığı mühitdə və ümumtəhsil müəssisələrində formalaşır.*



Bu günlərdə Bakının Nəsimi rayonunda yerləşən Milli Qəhrəman Yusif Mirzəyev adına 44 saylı tam orta məktəbdən vətənpərvərlik tərbiyəsi mövzusunda məqalə hazırlamaq qərarına gəldim. Məktəbə gələn hər kəs əvvəlcə qəhrəmanın büstü ilə qarşılaşır. Dəhlizdə isə şəxsi əşyalarından ibarət xüsusi guşə yaradılıb. İlk öncə məktəbin direktoru Leyla Baxşıyeva ilə səmimi söhbətimiz oldu. Direktor bildirdi ki, bu gün gənc nəslin düzgün yetişdirilməsi ölkə siyasətində önəmli yer tutur. "Ümummilli liderimiz Heydər Əliyev daim gənclərə qayğı göstərərək, onların bir fərd kimi yetişməsinə, milli və vətənpərvər ruhda tərbiyəsinə xüsusi önəm verirdi. Ulu Öndər nitqlərinin birində bu barədə deyirdi: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidir. Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük məfhumdur." Bu gün dövlət gənclər siyasəti Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Bu sahədə qazanılan uğurların nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar."

Leyla müəllim ölkə rəhbərinin təhsilə olan diqqət və qayğısından da danışdı. Bildirdi ki, sağlam düşüncəli yeni nəslin yetişdirilməsində misilsiz işlər görülməkdədir. "Məktəbimiz 2000-ci ildən YUNESKO-nun üzvüdür. Gənclərin hərtərəfli inkişafı üçün dövlətimiz hər cür şərait yaradıb".

Şəhid adlarının əbədiləşdirilməsinin yeniyetmə və gənclərimizin vətənpərvərlik tərbiyəsində böyük önəm daşıdığını bildirən direktor, Milli Qəhrəmanın ailəsi ilə məktəb kollektivinin davamlı əlaqələrini vurğuladı. "Gələn ildən nəvəsi də məktəbimizdə təhsil alacaq. Əfsanəvi döyüşçünün doğum və anım günlərini ailə üzvlərinin və silahdaşlarının iştirakı ilə qeyd edirik. Bunun şagirdlərimizin vətənpərvər ruhda böyüməsinə çox böyük təsiri var. Şagirdlərimiz ön xətdə qulluq edən əsgərlərimizə davamlı olaraq məktublar yazırlar. Bunun həm şagirdlərimizin vətənpərvər ruhda böyüməsinə öz töhfələrini verəcəyini, həm də əsgərlərimizdə ruh yüksəkliyi yaradacağını düşünürük."

Təlim-tərbiyə insan psixologiyasını formalaşdıran amillər sırasında öndə gedən elementdir. Uşaqların həyata fərqli baxışları, nitqi məktəbdə təşkil olunan tərbiyəyə əsasən formalaşır. Ümumiyyətlə, məktəblərdə həyata keçirilən tərbiyə işi hər bir müəllimdən pedaqoji ustalıq tələb edir. Onlar uşaq psixologiyasını hamıdan yaxşı başa düşürlər. Məhz buna görə də sağlam, vətənpərvər bir gəncliyin formalaşmasında müəllimlərin üzərinə ciddi məsuliyyət düşür.

Tədris işləri üzrə direktor müavini Tamilla Xankişiyevanın müşayiəti ilə məktəblə tanış olarkən bildirdi ki, Təhsil Nazirliyinin qərarı ilə yeni tədris ilinin ilk dərs saatı "Cocuq Mərcanlı - tarixi qayıdışın başlanğıcı" mövzusuna həsr olundu. "Müəllimlərimiz aprel döyüşlərində ordumuzun qələbəsi, Cocuq Mərcanlıdakı quruculuq işləri, Qarabağa qayıdışın başlaması haqqında şagirdlərə ətraflı məlumat verdilər. Şagirdlərimizdə vətənpərvərlik hissi, Vətənə, torpağa bağlılıq hissləri çox yüksəkdir. Biz inanırıq ki, tezliklə tarixi qayıdış gerçəkləşəcək və biz öz torpaqlarımıza qayıdacağıq", - deyən əslən Şuşadan olan müəllimin həmin vaxt səsində də bir əminlik hiss etdim.



Dəhlizdə ümummilli lider Heydər Əliyevin müdrik kəlamları, Dövlət atributları, Milli Qəhrəmanlar haqqında xüsusi guşə, şagirdlərin uğurlarını və əl işlərini əks etdirən bir-birindən maraqlı stendlər, manitorda səslənən əlamətdar günlərlə bağlı məlumatlar da diqqətimi cəlb edir. Sinif otaqlarından birinə daxil olarkən gördüklərimiz ürəyimizi qürurlandırır. Şagirdlər əllərini ürəklərinin üstə saxlayıb cani-dildən himnimizi oxuyurdular. Elə bil gəlişimizi hiss etmədən onlar himni sonadək oxudular.

Yeganə Quliyeva 32 ildir ibtidai sinif müəllimidir. O da gələcəyimiz olan uşaqların Vətənə məhəbbət, xalqa hörmət, soykökünə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşdığını bildirir. "Vətənpərvərlik insanın daxilindən gələn bir hiss olsa da, tərbiyə prosesində də şagirdlərə aşılanmalıdır. Onların vətənpərvər insan, sabahın layiqli vətəndaşı kimi yetişməsi üçün əlimizdən gələni əsirgəmirik."

Şagirdlərlə söhbət əsnasında Fərid Abbaslı bayrağımız, Fatimə İbrahimova gerbimiz, Kamran Kamranlı Milli Qəhrəman Yusif Mirzəyev, Günay İsmayılova isə vətənpərvərliyin nə demək olduğu barədə ətraflı məlumat verdilər.

- Sizlər Vətən dedikdə nə başa düşürsünüz? - sualıma Əli Əliyev belə cavab verdi:

- Vətən, uğrunda oğul-qızlarımızın şəhid olduğu müqəddəs torpaqdır.

- Bəs şəhidlik nədir? - soruşanda Ebru Əkbərli "Şəhidlik Vətən uğrunda can fəda etməkdir", - deyə tərəddüd etmədən cavab verdi.

31 ildir tarix fənnini tədris edən Qönçə Cəfərova da məktəbin qabaqcıl müəllimlərindəndir. O deyir ki, xalqını, millətini sevib özünü Vətəninin bir parçası bilən hər kəsin ən ümdə vəzifəsi cəmiyyətimizə, xalqımıza layiqli vətəndaş olmaqdır. "Biz də üzərimizə düşən böyük məsuliyyətin fərqindəyik. Gənclər dövlət qayğısını daim öz üzərlərində hiss edərək, nailiyyətləri ilə göstərilən qayğını doğrultmağa çalışırlar. Onlar bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini toplayaraq, Vətənin inkişafı üçün səylə çalışırlar. Qürurlu, vətənpərvər gəncliyimizin yetişməsində az da olsa xidmətlərim olduğuna görə özümü xoşbəxt sanıram".

2016-cı ilin aprel döyüşlərində gücünü dünyaya sübut edən bir ordunun zabiti olaraq mənim üçün daha artıq önəm kəsb edən bir sahə - gənc nəslin ordu həyatına hazırlanması ilə maraqlanıram. Öyrənirəm ki, gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris etmək ehtiyatda olan mayor Qabil Nərimanova həvalə olunub. Bu dəyərli ənənənin bir çox məktəblərdə davam etdirilməsi təqdirəlayiq haldır. Ehtiyatda olan zabit bildirdi ki, ən ümdə vəzifəmiz hər bir gənci orduya, Vətənə xidmətə hazırlamaqdan ibarətdir. "Gəncləri psixoloji baxımdan hərbi həyata hazırlamaq vacibdir. Ordumuzun ən güclülər sırasında olmasından qürur duyuruq. Ali Baş Komandanın və Müdafiə nazirinin orduya olan diqqət və qayğısı, davamlı olaraq ön cəbhəyə səfərləri, əsgərlərin yanında olmaları vətənpərvərlik baxımından dəyərli örnək olaraq gənclərimizdə hərbi xidmətə, orduya sağlam münasibəti formalaşdırır".



Müəllimin söhbətinə görə, ötən dövrlərlə müqayisədə ordu quruculuğunda qazanılan uğurlar, əsgərlərimizin cəbhə xəttində düşmənə qətiyyətli cavab verməsi böyüməkdə olan nəslin vətənpərvərlik ruhunu daha da artırır, onlarda əsgəri həyata güclü maraq doğurur.

Gənclərin çağırışaqədərki hazırlıq sinfində olan zəruri vəsaitlərə diqqət edirəm, həmçinin şagirdlərin hərbi səhra geyimində olmalarından könül xoşluğu duyuram. Məktəbin "Şahinlər" və "Cəsurlar" hərbi idman yarışlarında da yetərli uğurlarından xəbər tuturam.

İnsan öz ölkəsi, Vətəni haqqında nə qədər çox məlumatlı olursa, torpağını da sevərək onu qorumağı özünə borc hesab edir. Bu istiqamətdə Prezident İlham Əliyevin tapşırığına əsasən, ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillik illərində əldə edilmiş nailiyyətlərin dərindən öyrənilməsi məqsədilə "Ölkəmizi tanıyaq" adlı maarifləndirici tur-aksiyanın şagirdlərimizdə verdiyi müsbət nəticələr bizləri də çox sevindirir.

Sonda bir qrup şagirdlə dəyirmi masa ətrafında söhbətləşirik. Müsahibim Ümid Nəsibov bildirir ki, Vətən uğrunda canından keçərək ən uca, ali zirvəyə ucalan Azərbaycanın Milli Qəhrəmanının adını daşıyan məktəbdə təhsil aldığı üçün fəxr edir. "Şəhidlik Vətən üçün, torpaq üçün, böyük amallar üçün candan keçməkdir. Şəhidlik ömür payını gələcək nəsillərin xoşbəxtliyinə bağışlamaqdır. Məhz Milli Qəhrəmanımız Yusif Mirzəyev kimi..."

"Yaşadığımız dövrün biz gənclərin çiyinlərinə qoyduğu böyük məsuliyyətin fərqindəyik. Vətənimiz, dövlətimiz bizdən hər sahədə hünər gözləyir". Bu fikri isə Elmir Cavadov deyir.

Milli Qəhrəmanın bir dəfə məktəbdə keçirilən anım tədbirində ana rolunu canlandıran Aysun Əzizova isə keçirdiyi hissləri dilə gətirib şəhid analarının qarşısında baş əydiyini bildirərkən, Yusif Mirzəyevin rolunu oynayan Əzəmətəli Həbibli qürur və fəxrlə gələcəkdə hərbçi olacağını, onun kimi Vətəninə layiqli zabit kimi yetişəcəyini bildirdi.

Elmira Tağızadə, qohumu aprel döyüşlərində şəhid olan Seymur İsmayılov isə söhbətlərində ordumuzun xalqımıza yaşatdığı qələbə sevincindən söz açdılar. "Ordumuzun dünyanın inkişaf etmiş orduları sırasında olmasıyla qürur duyuruq. Azərbaycan əsgəri aprel döyüşlərində qələbəsi ilə gücünü bütün dünyaya sübut etdi. Vətən torpağının bir qarışını canından əziz bilən qəhrəman oğullarımızın həyatı bizlərə daim nümunədir. Bizlər Vətən qarşısındakı borcumuzu bu gün yaxşı oxumaqla, sabah isə orduda şərəflə xidmət etməklə verəcəyik."

Digər həmsöhbətlərim - Leyla Əsədova, Yelmar Abdullazadə, Firuzə Mustafayeva, Amin İmanov, Ayşən Məmmədova və başqaları da bildirdilər ki, hər bir sahədə əllərindən gələni əsirgəməyərək Vətənimizin adını göylərə qaldıranları özlərinə örnək hesab edirlər.

Məktəbli gənclərimizlə söhbətimdə məni sevindirən cəhət onların gələcək həyatlarında Vətəninə, millətinə layiqli övlad olmaq istəkləri idi. Sevinirəm ki, Vətənə, torpağa, bayrağa, xalqa sevgi ilə yaşayıb böyüyən gənclərimiz Vətən sevgisinin, Vətənə bağlılığın, Vətənin müqəddəsliyinin nə olduğunu tam anlamı ilə dərk edirlər.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Mübarizlik, əzmkarlıq qələbə sevinci yaşadır

*Mərkəzi Ordu İdman Klubunun yunan-Roma güləşi üzrə məşqçisi, beynəlxalq dərəcəli idman ustası, hərbçilər arasında keçirilən Avropa və Dünya birinciliklərinin 4 qat qalibi, Olimpiya oyunlarının gümüş mükafatçısı mayor Taleh İsrafilovla müsahibəni təqdim edirik.*



**- Cənab mayor, sizi kifayət qədər peşəkar idmançı və məşqçi kimi tanıyırıq. Bu yolda ilk addımlarınızı nə vaxt atmısınız? Sizə idmanı sevdirən hansı hissləriniz olub?**

- 1977-ci ildə Qərbi Azərbaycanda doğulmuşam. 1990-cı ilə kimi orada yaşamışıq. Sonra ermənilərin etnik təmizləmə siyasətinə məruz qaldıq. Hətta evimizi də partlatdılar. Biz də yüz minlərlə soydaşımız kimi doğma Bakımızda, Suraxanı rayonunda məskunlaşdıq. Uşaqlıqdan mübarizə aparmağı sevmişəm. Heç vaxt uduzmaqla barışmamışam. Məhəllədə güləşdə məni yıxan olmazdı. Həmişə lider, qalib olmağı istəyirdim. Bir gün yığışıb yaxınlıqda yerləşən "Neftçi" İdman Cəmiyyətinin binasına getdik. Yaşıdlarım arasında, ancaq Güloğlan adlı bir nəfərə uduzurdum. Lakin mübarizəmdən əl çəkmirdim. Sabahkı günü səbirsizliklə gözləyirdim ki, Güloğlanla güləşəcəm, onu udacam. Hələ bir ara siqaret də çəkirdim. Hiss edirdim ki, bu pis vərdişdən əl çəkməliyəm. Belə də oldu, zərərli vərdişi birdəfəlik tərgitdim. Həmin gündən, ancaq sağlamlığıma, məşqlərə fikir verməyə başladım. Nəhayət, Güloğlanı məğlub etdim. Bununla da idman karyeram başladı.

**- Dedikləriniz hər bir gəncə örnəkdir. Hamıya idmanla məşğul olmaq, sağlamlıq lazımdır. Bəs sizin peşəkar güləşçi kimi yetişməyinizdə kimlərin zəhmətini vurğulayardınız?**

- Əli Paşayevi. Əli müəllim, sözün əsil mənasında, əlimdən tutub. Uşaqlarla məşqə gedəndə təqribən 10 nəfər olardıq. Onların arasında ən çəlimsizi, zəifi mən idim. Birinci gün məni komandaya qəbul etmədilər, məyus halda zalı tərk etdim. Bu vaxt bir nəfər əlimdən tutub saxladı, "səninlə özüm məşğul olacam" dedi. Sonradan öyrəndim ki, bu adam Əli Paşayevdi. Əlqərəz, beləcə məşqlərə başladım. Bir müddət hazırlaşandan sonra yeniyetmələr arasında keçirilən Avropa çempionatına göndərildim. Onda Əli müəllim baş məşqçimiz idi. Həmin yarışda 3-cü yeri qazandım. İlk dəfə onun ağladığını gördüm. Səbəbini soruşanda, "sevincdəndir, oğlum, bu mənim ilk nəticəmdir. İlk dəfədir ki, dünya arenasında tələbəm medal qazanır. Bu həm də klubumuzun dünya səviyyəsində ilk uğurudur" dedi. "Neftçi" cəmiyyətinə də güləşdən ilk medalı mən gətirmişdim. Ondan sonra sevindiyim günlər çox oldu. Olimpiya çempionumuz Fərid Mansurov, qardaşı, dünya mükafatçısı Rəşad Mansurov və digər peşəkar idmançılar da bizim sıralarımızda yetişiblər.

**- Dünyanın bir nömrəli futbolçusu Messi ilə oxşar karyeranız var. Ona da vaxtı ilə səndən futbolçu olmaz demişdilər. İlk uğurunuz və sonrakı qələbələriniz haqqında danışın. İlk dəfə qızıl medalı nə vaxt qazanmısınız və həmin gün hansı hissləri keçirdiniz?**

- İlk vaxtlar məğlubiyyətlərim olurdusa da, mübarizliyimi heç zaman itirmirdim, sağlam rəqabət haqqında düşünürdüm. Nəhayət, 1995-ci ildə Mərkəzi Ordu İdman Klubunda təşkil olunan ölkə çempionatında qalib oldum və adımı yığma komandaya yazdılar. Sonradan çoxlarının kürəyini yerə vurdum. İlk qızıl medalı 2001-ci ildə hərbçilər arasında keçirilən dünya çempionatında qazandım. O sevinci, qürur hissini, inanın ki, söyləmək çətindi. İllərdir çəkdiyin əziyyətin bəhrəsini görəndə fərqli və qarışıq hisslər keçirirsən.



Kürsünün ən uca pilləsinə çıxırsan, təmsil olunduğun dövlətin himni səslənir, bayrağı ən yüksəkdə dalğalanır və düşünəndə ki, bunlara səbəb sənin qələbəndir, onda həyəcandan, qürurdan sinən qabarır, yerə-göyə sığmırsan. İndi də o günləri xatırlayanda həyəcan keçirirəm.

**- Bəs idmançı taleyinizdə ən əlamətdar hadisə nə zaman olub?**

- Bütün yarışlarım yaddaqalandır, çünki hər birində illərin zəhmətini yaşamışam. Lakin iki görüşü xüsusi vurğulamaq istəyirəm. Misirdə keçirilən turnirdə 3-cü yeri qazandıqdan sonra, yeniyetmələr arasında Avropa çempionatında iştirak etdim. Həmin yarışda 5-ci rəqibimə qalib gəldikdən sonra yarımfinalda rusiyalı idmançıya məğlub olaraq, 3-cü yer uğrunda erməni güləşçi ilə mübarizə apardım. Ona gözünü açmağa macal vermədən qəti qələbəmi təmin etdim. 1999-cu ildə isə yenə də hərbçilər arasında dünya çempionatında finala qədər irəlilədim və Olimpiya çempionu olmuş, təcrübəli yapon idmançısı ilə qarşılaşdım. Gərgin mübarizə gedirdi. 3-2 hesabı ilə geridə qalırdım. "Başqol" adlanan bir fənd işlətdim və 3 xal qazanaraq hesabda önə keçdim. Sonda hakimlər qələbəni mənə vermək istəyəndə, yaponlar etiraz etdilər və o fəndin guya boğucu fənd olduğu ideyasını irəli sürərək video görüntülərə baxdılar. Və bizə qarşı haqsızlıq oldu, qələbə rəqibə verildi. Lakin bu məndə nə ruh düşkünlüyü, nə də məyusluq yaratdı. Əksinə, mübarizliyimi, əzmkarlığımı daha da artırdı. Növbəti dəfə 2001-ci ildə Hüseynağa Ələsgərovun rəhbərliyi altında yenidən hərbçilərin dünya çempionatında iştirak etdim və qalib oldum. Dalbadal ölkəmizə qızıl medalla qayıtdım.

**- Şərəfli peşə sahibi - hərbçi olaraq Silahlı Qüvvələrimizdə keçirilən idman yarışlarını, birincilikləri necə dəyərləndirərdiniz?**

- Hərbi xidmətə ilk dəfə 1998-ci ildə, İdman Akademiyasından məzun olduqdan sonra gəlmişəm. Hər vətənpərvər gənc kimi, əsgər olmaq mənim də arzum idi. Mərkəzi Ordu İdman Klubunda əsgəri xidmət keçmişəm. Sonra zabit kimi xidmətimi də elə burada davam etdirmişəm. Həm zabit kimi ordumuza xidmət etməkdən, həm də beynəlxalq idman arenasında ölkəmizi tanıtdırmaqdan qat-qat qürurluyam. Hərbçilər arasında kütləvi idman yarışlarının keçirilməsini mən də alqışlayıram, bu çox əhəmiyyətlidir. Bu tədbirlər hərbçilərimizə, əsgər və zabitlərimizə yüksək mənəvi ruh, mübarizlik, çeviklik aşılayır. Bu cür keyfiyyətlər isə hərbçiyə xas olan ən vacib amillərdir.

**- Bir qədər də yetirmələrinizdən danışın.**

- İstər idmançı, istərsə də məşqçi kimi uğur qazanmaq üçün fərdi bacarıqla yanaşı, ölkədə idmana yaradılan şərait də vacib məsələdir. Buna görə Ali Baş Komandanımıza bütün idmançılar adından minnətdarlığımı bildirirəm. Hazırda Azərbaycanda idman sahəsində də məqsədyönlü dövlət siyasəti həyata keçirilir. Elə bir şəhər, rayon tapılmaz ki, orada müasir idman-sağlamlıq kompleksləri istifadəyə verilməsin. Bütün bunlar gənc nəslin idmana marağını formalaşdırır. Ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə olduğu kimi, idman sahəsində də uğurla davam etdirən Ali Baş Komandan İlham Əliyevin Milli Olimpiya Komitəsinin Prezidenti seçilməsi Azərbaycanın idman həyatında dönüş nöqtəsi oldu və ölkədə idmanın sürətli inkişafına zəmin yaratdı. Avropa Oyunları, 4-cü İslam Həmrəyliyi Oyunları, Formula-1 yarışları kimi dünya miqyaslı tədbirlərin ölkəmizdə keçirilməsi də idman siyasətimizin uğurlarıdır.

Uğur qazanan yetirmələrimdən Dünya çempionu Həsən Əliyevi, Olimpiya qalibi leytenant Rafiq Hüseynovu, yayda Avropa çempionu olan Asim İmanzadəni vurğulaya bilərəm. Ətrafımda məşq edən hər kəsə əzmkar, mübariz olmağı tövsiyə edirəm. Əgər qarşına bir məqsəd qoymusansa, heç nədən çəkinmədən əlindən gələni etməlisən. Bax bu zaman qələbə sənin olacaq.

**- Yeniyetmə və gənclərin idman vərdişlərinə yiyələnməsi, sabahın əsgərləri kimi onlara hansı üstünlükləri qazandırır? Bir zabit və peşəkar idmançı kimi gənclərimizə, əsgərlərimizə tövsiyələriniz, arzularınız da qələmə almaq yerinə düşərdi.**

- Biz unutmamalıyıq ki, torpaqlarımızın 20 faizi işğal altındadır. Hər birimizin ən ümdə vəzifəsi torpaqlarımızı işğaldan azad etmək üçün Ali Baş Komandanın döyüş əmrinə daim hazır olmaqdır. Döyüş zamanı isə elə bir məqam yaranır ki, düşmənlə üz-üzə gəlirsən, əlbəyaxa savaşırsan. Bu anda şəxsi idman bacarıqların, fiziki hazırlığın, çevikliyin öz sözünü deyir. Gənclərimiz idmanla nə qədər çox məşğul olsa, fiziki hazırlıqlarını artırsalar, gələcəkdə Vətən qoruyucusu kimi sağlam, iradəli, dözümlü, möhkəm olacaq, torpaqlarımızı daha da inamla qoruyacaqlar. Hər bir gəncə, əsgərə tövsiyəm odur ki, Vətənimizi, dövlətimizi, millətimizi böyük ürəklə sevsinlər.

**- Taleh müəllim, maraqlı söhbətə görə sağ olun.**

**Söhbətləşdi:**
**leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

## "Əfqanıstanda sülhün və inkişafın təmin olunması Dağlıq Qarabağ probleminin ədalətli həlli üçün vacib amildir"

*Azərbaycanın "Asiyanın Qəlbi - İstanbul Prosesi" çərçivəsində "Gücləndirilmiş Asiyanın Qəlbi regionuna doğru təhlükəsizlik və iqtisadi bağlantılar" mövzusunda 7-ci nazirlər konfransına ev sahibliyi etməsi bütün dünya üçün əhəmiyyətli sülh çağırışıdır.*

Bu fikirləri AZƏRTAC-ın xüsusi müxbirinə müsahibəsində sosial elmlər üzrə türkiyəli tanınmış ekspert, yazıçı Mətin Yıldırım bildirib. O deyib ki, Azərbaycan erməni işğalından və terrorizmindən ən çox əziyyət çəkən ölkədir. İşğal faktının ortada olduğu bir vaxtda Azərbaycanın Əfqanıstanda sülhün və inkişafın yaranmasına dəstək verməsi bütün dünya üçün düşündürücü və əhəmiyyətlidir. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə 2016-cı ilin "Multikulturalizm İli", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" elan olunduğu Azərbaycanda Ümumdünya Mədəniyyətlərarası Dialoq, Bakı Beynəlxalq Humanitar forumlarının keçirilməsi ənənə halı alıb. Azərbaycan 2010-cu ildə Dünya Dini Liderlərinin Sammitinə, 2016-cı ildə BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumuna uğurla ev sahibliyi edib. Bu tədbirlərin dünyada sülhün və həmrəyliyin təşviqində mühüm rol oynadığını vurğulayan ekspert deyib: "Əminliklə deyə bilərəm ki, Əfqanıstanda uzunmüddətli sülh və inkişaf üçün qəbul ediləcək beynəlxalq səviyyəli qərarlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və ədalətli həllinə təkan verə bilər".

## Vyanada Azərbaycanın xarici işlər nazirinin ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüşü keçirilib

Avstriyanın paytaxtı Vyanada Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı müzakirələrin aparıldığını bildirib. O qeyd edib ki, rəsmi Bakı substantiv danışıqlar vasitəsilə Minsk Qrupunun həmsədrləri ilə birlikdə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli istiqamətində səylərini davam etdirəcək.

# Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində tədbir



Naxçıvan Qarnizonu şəxsi heyətinin iştirakı ilə ümummilli lider Heydər Əliyevin "Yeni 2001-ci il, Yeni əsr və Üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti" kitabı müzakirə edilib.

Tədbirdə Əlahiddə Ümumqoşun Ordunun zabiti polkovnik Niyaməddin Tağıyev çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2017-ci il avqustun 28-də "Oxunması zəruri olan kitablar haqqında" imzaladığı sərəncama uyğun olaraq şəxsi heyətin mütaliəsi üçün ordu, birləşmə və hissələrin kitabxanalarında guşələr yaradılıb.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, "Oxunması zəruri olan kitabların siyahısı"nda birinci sırada yer alan kitab Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Yeni 2001-ci il, Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti"dir. Bu müraciətdə milli tariximizin bütün dövr və mərhələlərinə yüksək peşəkarlıqla qiymət verilib, baş vermiş ictimai-siyasi proseslər barədə obyektiv mülahizələr səsləndirilib və gələcək inkişaf yolları müəyyənləşdirilib.

Əlahiddə Ümumqoşun Ordunun zabiti polkovnik Mirqiyas Rüstəmov çıxışı zamanı bildirib ki, ümummilli lider Heydər Əliyev Azərbaycan xalqına müraciətində XX əsrdə qazanılan uğurlar əsasında XXI əsrin inkişaf meyillərini də uzaqgörənliklə göstərib.

Tədbirin sonunda ordu quruculuğundan bəhs edən video-film nümayiş etdirilib.

**Leytenant Nəriman NƏCƏFOV, "N" hərbi hissəsi, foto əsgər R.ƏLƏSGƏROVUNDUR**

*Yeni nəşrlər*

# "Mənim müharibəm" qələbəyə inam kitabıdır...

*Tanınmış yazıçı və publisist Nemət Veysəllinin "Mənim müharibəm" adlı kitabı müharibə haqqında deyil, müharibədəndir, birbaşa odlu-alovlu səngərlərdəndir.*

Qarabağ hadisələri başlanandan böyük narahatlıqlar içində yaşayan, hələ "Ulduz" jurnalında işləyərkən cəbhə bölgələrinə gedən Nemət müəllim yaşı əllini keçsə də, 1993-cü ilin mayında könüllü olaraq ordu sıralarına gəlib - "Azərbaycan Ordusu" qəzetində bölgə müxbiri kimi xidmətə başlayıb. Cəbhə bölgələrində, səngərlərdə olub, döyüşlərdə iştirak edib. Uzun müddət ön xətdə xidmət edən Nemət Veysəlli neçə-neçə döyüşün iştirakçısı və şahidi olub. Bu illər ərzində neçə-neçə zabitlə, əsgərlə söhbətləşib. Sonralar qeydləri böyük əsərlərə, kitablara ("Haran ağrıyır, Vətən", "Yaş həddinə görə...", "Mənim müharibəm") mövzu verib.

Nemət müəllimin yenicə işıq üzü görmüş "Mənim müharibəm" kitabında təsvir edilən səngərlərdə mən də olmuşam, mən də hadisələrin şahidiyəm. Amma Nemət Veysəllinin hadisələrə özünəməxsus yanaşması, deyim tərzi fərqli və maraqlıdır. "Mənim müharibəm"in dili çox rəvan, anlaşıqlı, aydındır. Kitabı oxuduqca adam özünü hadisələrin içində hiss edir. Müəllif təsvir etdiyi dövrü oxuculara təfərrüatı ilə çatdırmağa çalışır. Yazıçı hadisələrin birindən digərinə keçidi asanlıqla edir. Hər söz, hər cümlə düşündürücüdür. Oxuduqca sətirlərin arasından Nemət müəllimin kədərdən yoğrulmuş səsini də eşidir, qayğılı çöhrəsini də görürük. Mövzuların geniş və əhatəli işıqlandırılması yazıçı-publisist Nemət Veysəllinin peşəkarlığından xəbər verir.

Hələ hadisələr başlamazdan bir müddət əvvəl Nemət müəllim doğma kəndlərində ev tikmək istəsə də, baş verən qanlı hadisələr onun niyyətinin qarşısını kəsib. Bir müddət sonra ermənilər onun doğma kəndini işğal edib, evləri yandırıb. Bu kədərli hadisələr kitabda çox təsirli əks olunub. Kitabı həmin dövrün güzgüsü adlandırsaq səhv etmərik.

Nemət müəllim məqalələrini ürək ağrısı və vətəndaş narahatçılığı ilə yazır. Oxuduqca sanki zaman bir anlıq geri dönərək bizi 1992-1993-cü illərə qaytarır. O qanlı hadisələr, gərgin günlər gözlərimiz qarşısında yenidən canlanır...

Müəllif bəşəri hisslərə sadiq qalaraq müharibəyə, qırğına və zorakılığa heç vəchlə haqq qazandırmır. Qanlı döyüşlərdə faciəli şəkildə həlak olan insanların ölümünə acıyır. Müharibəni qeyri-insani addım kimi qiymətləndirir. "Mənim müharibəm" kitabında erməni faşizminin uzun illər pərdə arxasında qalmış iç üzünü açıb oxuculara göstərir.




Müharibədə övladlarını itirmiş valideynlərin iztirabı və faciəsi kədərli notlarla kitabda öz əksini tapıb. Oğulları müharibədə şəhid olmuş Əlövsət müəllimin, Savalan kişinin başına gələnlər oxucunun qəlbini göynədir.

Nemət Veysəlli baş verən hadisələrin fonunda özünü də bir vətəndaş kimi qanlı hadisələri unutmamağa çağırır. Cəbhə bölgələrində şahidi olduğu hadisələr bir insan, bir yazıçı kimi Nemət Veysəllini kədərləndirir.

Əbədi-əzəli düşmənimiz olan ermənilərin xalqımızın başına gətirdikləri faciələri Nemət müəllim faşistlərin yəhudilərə qarşı törətdiyi cinayətlərlə müqayisə edir. Və haqlı olaraq yazır ki, ermənilərin Azərbaycana, Azərbaycan vətəndaşlarına qarşı törətdikləri ağlasığmaz cinayətlər, işgəncə və vandallıq faşistlərin yəhudilərə qarşı törətdiyindən də qat-qat dərin və artıqdır. Ermənilərin Azərbaycana qarşı Qaradağlıda, Xocalıda, Göyçədə törətdikləri cinayətlər faşistlərin Xatın kəndində, Babu-Yarda törətdiklərindən amansız və geniş miqyaslıdır. Çox dəqiq müşahidələrdir.

Qarabağdan, Qarabağın keçmişindən və bu günündən, Qarabağ müharibəsindən bəhs edən bu kitabda həyat həqiqətləri, reallıqlar olduğu kimi təqdim edilib.

Müəllif xatirələrini çözələyərək yaşanıb arxada qalmış illərə səyahət edir. Ömrünün uşaqlıq çağlarına qayıdır. Biz də, Nemət Veysəllinin kədər dolu xatirələri ilə Veysəlliyə dağlara çıxır, bağ-bağçaları gəzir, kəhrizlərdə ürəyimizi sərinlədirik. Kənd bütün gözəlliyi ilə qarşımızda vərəq-vərəq açılır...

Nemət Veysəlli oxucularını erməni işğalçıları ilə mübarizəyə səsləyərək yazır: "Pafosdan, coxmərtəbəli sözlər söyləmək fikrindən uzağam. Bu torpaqlar uğrunda gərək hər şeyə hazır olasan. Daha sənin, azərbaycanlının, Azərbaycan vətəndaşının XIX əsrdən üzü bəri itirdiklərinə nöqtə qoyulmalıdır."

İnanırıq ki, işğalların sonu gələcək...

**Vahid MƏHƏRRƏMOV**

# Xəbərlər: hadisələr, faktlar

## Yaponiya Müdafiə Nazirliyi qırıcı təyyarələri qanadlı raketlərlə təchiz etmək niyyətindədir



Yaponiyanın Müdafiə Nazirliyi növbəti maliyyə ilində qırıcı təyyarələri uzaq radiuslu qanadlı raketlərlə təchiz etmək planını araşdırmaq üçün büdcə vəsaiti ayrılması barədə sorğu vermək niyyətindədir.

Gərginləşməkdə olan indiki şəraitdə Yaponiya uzaq adaların müdafiəsini gücləndirmək məqsədilə düşmən gəmilərini uzaq radiuslu raketlərlə məhv etmək üçün qırıcı təyyarələrin hücum qabiliyyətini gücləndirməyi planlaşdırır. Nazirlik bu məqsədlə Norveç istehsalı olan 300 kilometr radiusda uçuş qabiliyyətinə malik JSM və 900 kilometr radiusda uçuş qabiliyyətli ABŞ istehsalı olan JASSM-ER raketlərini almağı nəzərdən keçirir.

## İran Rusiyadan silah alacaq



İran ilə Rusiya arasındakı hərbi əməkdaşlıq əlaqələrini inkişaf etdirmək üçün heç bir manea yoxdur.

Bu sözləri İran parlamentinin beynəlxalq siyasət və təhlükəsizlik komitəsinin sədri Əladdin Borucerdi deyib.

Ə.Borucerdi Rusiyadan C-300 zenit-raket kompleksinin alındığını və gələcəkdə yeni silahların alınacağını da bildirib. Deputat qeyd edib ki, hazırda İran ilə Rusiya arasında Suriyada hərbi əməkdaşlıq əlaqələri inkişaf edir.

## Çin Hindistana məxsus PUA-nın ölkənin hava məkanına daxil olmasından narazıdır



Çin tərəfi Hindistana məxsus pilotsuz uçuş aparatının (PUA) ölkənin hava məkanına daxil olmasından narazılığını bildirib.

Çin Xalq Azadlıq Ordusunun yüksək rütbəli hərbçisi Can Şuyli bu barədə bəyanat verib.

Bildirib ki, ölkənin sərhəd qoşunları Hindistana məxsus PUA-nın icazəsiz Çin hava məkanına daxil olduğunu və bir müddət sonra naməlum səbəbdən düşüb məhv olduğunu müşahidə ediblər. "Hindistanın bu hərəkəti Çinin ərazi suverenliyini pozub və biz bundan çox narazıyıq. Çin silahlı qüvvələri öz missiyasını və öhdəliyini yerinə yetirəcək, ölkənin suverenliyini və təhlükəsizliyini qəti şəkildə qoruyacaq", - deyə Can Şuyli bildirib.

## ABŞ Qüdsü İsrailin paytaxtı kimi tanıdı



ABŞ Qüdsü İsrailin paytaxtı kimi tanıyıb.

Bunu Birləşmiş Ştatların Prezidenti Donald Tramp bəyan edib. O deyib: "Mən qərara gəldim ki, artıq Qüdsü rəsmən İsrailin paytaxtı kimi tanımağın vaxtı gəlib çatıb".

## Kolumbiyada mədəndə baş verən partlayış nəticəsində 6 nəfər həlak olub



Kolumbiyanın Boyaka departamentində mədəndə baş verən partlayış nəticəsində azı 6 nəfər həlak olub, 3 nəfər isə itkin düşüb.

Bu barədə məlumat region hökumətinin saytında yerləşdirilib.Faciə Korrales bələdiyyəsinin ərazisində qeydə alınıb. Hazırda hadisə yerində xilasedicilər işləyir, itkin düşənlərin axtarışı davam edir. İlkin məlumata əsasən, partlayışa mədəndə toplanan təbii qaz səbəb olub.

**AZƏRTAC-ın materialları əsasında**

*Əks-səda*

# O həsrət sovuşacaq



Hörmətli redaksiya!

Qəzetinizdə dərc edilən məqalələri oğlu hərbi xidmətdə olan analar kimi, oğlu hərbi xidmətdən tərxis olunmuş analar da maraqla oxuyur. O məqalələr biz anaların orduya inamını, sevgisini daha da artırır. Qürurlanırıq ki, oğlumuz belə bir orduda xidmət edib. Qəzetimizin 29 noyabr tarixli sayında dərc edilmiş "Əsgər oğluma məktub" məqaləsi bütün analar kimi mənim də ürəyimi titrətdi.

Həyat yoldaşım hərbçi olub. Ehtiyatda olan mayordur. Oğlumuz Araz göz açıb atasını hərbi mundirdə görüb. Dil açıb danışalı ata-bala söhbətlərinin əsas mövzusu Vətən olub, torpaq olub, hərbi xidmət olub. Arazın suallarına atası həvəslə cavab verərdi: "Vətən nədi?", "Şəhidlik nədi?", "Niyə deyirik ki, şəhidlər ölmür?"

Araz ali təhsil aldı. Hərbi xidmətə çağırılanda sevincini sözlə ifadə edə bilmirəm. Həmin gün atası gələndə ona hərbi salam verdi: əsgər Araz Məhərrəmli hərbi xidmətə getməyə hazırdır! Elə xoş, elə könül açan məqam idi ki! Üçümüz də kövrəldik. Bizə belə xoş anlar yaşatdığına görə Arazı bağrıma basdım.

Araz indi hərbi xidmətdədi. Yaxşı xidmət edir. Bu günlərdə nümunəvi xidmət etdiyinə görə məzuniyyətə buraxılmışdı. Televizorda hərbçi görəndə balaca Arzunun səsi otağı doldururdu: atamın qardaşlarıdı! Beş yaşlı nəvəm atasını hərbi mundirdə görəndə elə sevindi ki: atam əsgərdi, ay nənə!

Mən əsgər anası olmağımla qürur duyuram. Əsgər anası Şərafət Muquzovanın oğluna məktubunu bütün əsgərlərə, eləcə də mənim oğluma ünvanlanmış müraciət bilirəm: məqam həmin məqamdı! Varlığımla inanıram ki, Vətəni anaları kimi qoruyan oğullarımız Ali Baş Komandanın əmrinə hazırdır. Onlar yaxın vaxtlarda torpaqlarımızı işğaldan azad edəcəklər. Oğullarımız indi Vətənin oğludu. Oğullarımız indi bütün anaların oğludu. Şərafət xanımın məktubunu, şübhəsiz ki, Araz da oxuyub. "Vətən üçün şəhidliyə də hazırıq, ana!" - deyənlərin sırasındadı.

Hörmətli redaksiya!

Belə bir məktub yazdığına görə bütün əsgər analarının adından əsgər anası Şərafət xanıma minnətdarlığımı çatdırmağınızı xahiş edirəm. Bütün əsgər anaları torpaqlarımızın işğaldan azad ediləcəyi günün, oğlunu qalib əsgərlərin sırasında görəcəyi anların həsrətindədi. Bu məktublar, belə məktublar o həsrətin sovuşması üçündü. O həsrət sovuşacaq!..

**Mehriban MƏHƏRRƏMOVA,**
**əsgər anası,**
**Bakı şəhəri**

# Şəhid qanı axmayan torpaqdan Vətən olmaz



...Düşmən qarşısında inamla dayanıb, Vətənimizi, torpaqlarımızı qoruyarkən şəhid olan igid qardaşlarımızdan birinin dəfn mərasimindən çəkilmiş şəkilləri gördükdə, hisslərimə qapılaraq bu yazını yazmaq qərarına gəldim.

Sən sağ olasan, Vətən! Daha bir gənc sənin müqəddəsliyin uğrunda gözünü qırpmadan canını fəda etdi. Bir ata cənazənin yarında donub qalıb, axı övladını öz əlləri ilə torpağa tapşıracaq. Adi ölüm olsaydı, bu bir ata üçün çox çətin və əzablı olardı. Min əziyyətlərlə böyütdüyü oğluna, nə böyük arzular bəsləmişdi. Lakin şəhid atası olduğu üçün mətinliyi, vətənpərvərliyi bu hisslərin hamısına qalib gəlir. Başını dik tutub, göz yaşlarını ovundurmağa çalışır. Dindirəndə həzin bir səslə pıçıldayır: “Onlarla belə oğul fəda edərəm Vətən uğrunda, təki Vətən sağ olsun”. Gənc övladını torpağa tapşıran, heç bir təsəlli ilə ovunmayan ana da “Vətən sağ olsun”, - deyir, oğlunun nəşi üstünə sərilən bayrağımızdan, onun əsgər yoldaşlarından təskinlik tapır... Hər kəs baş əyir məzarının önündə, "səninlə fəxr edirik, Azərbaycan əsgəri, şərəflə qorudun Vətəni" deyir.

Bax, şəhidlik belə bir zirvədir, ünvanı əbədiyyətdir. Şəhid olmağı özünə şərəf bilən hər kəsin daxilində yüksək vətənpərvərlik, cəsurluq, müsbət əxlaq, əqidə vardır. Elə buna görə də onlar şüurlu şəkildə ölümü gözə ala bilirlər. Balaca məktəblidən bir dəfə soruşdum ki, şəhidlik nədir? Tərəddüd etmədən dedi ki, şəhidlik, Vətənə olan sonsuz sevginin təcəssümü, Vətənə can fəda etməkdir. Bu sevgi beşikdən, ana laylasından, ailədən, məktəbdən başlanır. Şahidi olduğum bir hadisədən də söhbət açmaq istəyirəm. Övladımın baxçasında "Bayraq Günü" münasibəti ilə təşkil olunmuş tədbirdə 2-5 yaşlarında körpə balalar əsgər forması geyinib, əllərini ürəklərinin üstünə qoyub uca səslə Dövlət himnimizi əzbərdən oxuyurdular. Hər valideyn kimi, mən də çox fərəhləndim. Bu səhnə göstərir ki, balaca əsgərlər gələcəyin Mübarizləri, Çingizləri, Turallarıdır. Və bir anlığa qürurlandım ki, övladlarımız milli ruhda xalqa, torpağa, Vətənə sevgi ilə böyüyürlər.

Vətənimizin müstəqilliyi, torpaqlarımızın azad olunması naminə ölümü gözə alan gənclərimiz bu müqəddəs amal uğrunda şəhid olursa, bu, xalqımızın böyüklüyüdür. Şəhid verməyən xalqın mənliyi olmaz. Şəhid qanı axmayan torpaqdan Vətən olmaz. Bizim xalqımız Vətəninə, torpağına bağlı qəhrəmanlar yetişdirən xalqdır.

İgid qardaşlarımız bu qəhrəmanlığı, mübarizliyi keçən ilin aprel döyüşləri zamanı bütün dünyaya nümayiş etdirdilər. Düşmən təxribatının qarşısını alarkən canından keçən nə qədər mərd oğullar fəda verdik. Həmin gün onlar düşməni bir addım da irəli buraxmamaq üçün son damla qanlarına kimi vuruşdular. Qorxu duymadan, ürəklərində böyük Vətən sevgisi ilə qəhrəmancasına döyüşüb şəhid olan Murad Mirzəyev, Raquf Orucov, Samid İmanov, Qabil Orucəliyev və başqaları bir daha sübut etdilər ki, bu xalqın qəhrəmanları yüzlərlə, minlərlədir. Onların ömür yolu gənclərimizə nümunədir. Uşaqdan-qocaya hər bir vətəndaşımız şəhidlərimizi daim böyük ehtiramla anır, onların qəhrəmanlığını örnək bilir.

Şəhidlər ölməz, unudulmaz! İllər keçsə də, gələcək nəsillər onları hər zaman böyük minnətdarlıq duyğusu ilə yad edəcəklər. Şəhidlərin davamçısı varsa, xatirələri hər yerdə anılırsa, deməli, onlar ölməyib, ürəklərdə daim yaşayırlar. Hər birimizin vətəndaşlıq borcudur ki, şəhidlikləri ilə bizə qələbə sevinci yaşadan bu oğullarımızı daim qəlbimizdə yaşadaq.

**Ülviyyə MƏMMƏDOVA**

*Hərbi ənənələr, yeniliklər*

# “RO-400” aşkaretmə radarı

Analoqu olmayan "RO-400" aşkaretmə radarı kərpic, dəmir-beton divarları arxasında qalan hədəfləri aşkar etmək üçün nəzərdə tutulub. Bu radar axtarış funksiyalarını yerinə yetirməyə qadirdir. Onun əsas funksiyalarından biri də yeraltı girişlərin, gizli yerlərin, metal və qeyri-metal korpuslarda partlayıcı-mina qurğularının aşkar edilməsi, avtomobil və dəmiryolu, torpaq altında olanları, kommunikasiya xətlərini, qaçaqmalçıları və gizli kriminal dəfnləri aşkar etməkdir.



Radarın əsas üstünlüyü dəmir-beton və kərpic divarlar arasından, çoxsaylı üstüörtülü tikililərdə hədəflərin aşkar edilməsinə zəmanət verməsidir. Bundan başqa radarın daşınan idarəetmə blokunun köməyi ilə məsafədən idarə edilməsi, 5 kiloqrama qədər yük qaldırmağa qadir olan hər hansı bir robotda quraşdırılması da nəzərdə tutulub. Taktiki-texniki xüsusiyyətlərinə gəldikdə isə onun ölçüsü 395x300x155 mm, çəkisi 4,8 kiloqramdır, 4 saata qədər işləməyə qadirdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Akrobatika və aerobika gimnastikası üzrə ölkə çempionatı davam edir



Dekabrın 7-də Milli Gimnastika Arenasında akrobatika gimnastikası üzrə Bakı çempionatı və birinciliyi, aerobika gimnastikası üzrə Azərbaycan və Bakı birinciliyi, tamblinq üzrə Azərbaycan birinciliyi və Bakı çempionatının ikinci gününə start verilib.

Yarışın ikinci günündə balacalar, uşaqlar, yeniyetmələr və böyüklər yaş kateqoriyalarına daxil olan akrobatlar, 7-8, 9-11 və 12-14 yaşlı aerobika gimnastları medallar uğrunda mübarizə aparırlar.

## Yeniyetmə güləşçilərimiz Astanada keçirilən beynəlxalq turnirdə üç qızıl medal qazanıblar



Qazaxıstanın paytaxtı Astanada Əməkdar məşqçi Axmetcan Kazımbetovun xatirəsinə həsr olunan yeniyetmə güləşçilər arasında beynəlxalq turnir keçirilib.

Turnirdə sərbəst güləş üzrə yeniyetmələrdən ibarət yığma komandamızın üzvləri də iştirak ediblər.

Azərbaycan komandası ilə yanaşı, Özbəkistan, Qırğızıstan, Rusiya və Qazaxıstan pəhləvanlarının iştirak etdikləri turnirdə güləşçilərimiz üç qızıl medal qazanıblar. Əlihəsən Əmirli (45 kq), Elvin Dünyamalıoğlu (65 kq) və Fuad Mayılov (80 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıblar.

## Futbol üzrə U-19 və U-17 komandalarımızın rəqibləri müəyyənləşib



Azərbaycanın 19 və 17 yaşadək futbolçulardan ibarət komandalarının iştirak edəcəyi Avropa çempionatının ilkin seçmə mərhələsinin püşkü atılıb.

Azərbaycanın U-19 yığması Gürcüstan, İsrail və Lixtenşteyn yığmaları ilə birlikdə birinci qrupda yer alıb. Oyunlar 2018-ci il noyabrın 14-də, 17-də və 20-də Gürcüstanda keçiriləcək. U-17 millisi isə Çexiya, Norveç və Albaniya ilə birgə VIII qrupda mübarizə aparacaq. Qarşılaşmalar gələn il oktyabrın 23-də, 26-da və 29-da Albaniyada oynanılacaq.

## Parataekvondo üzrə Azərbaycan yığması Dünya Oyunlarını üçüncü yerdə başa vurub




Portuqaliyada IWAS versiyası üzrə fiziki məhdudiyyətli idmançılar arasında keçirilən Dünya Oyunlarının taekvondo yarışları başa çatıb.

Oyunların sonuncu günündə qadınlar arasında mübarizəyə qoşulan Röyalə Fətəliyeva (49 kq, K44) bürünc medala sahib olub.

Beləliklə, Dünya Oyunlarında 12 idmançı ilə təmsil olunan parataekvondo üzrə milli komandamız aktivinə bir qızıl, bir gümüş və üç bürünc medal əlavə edib.

Xatırladaq ki, yarışların ilk günündə millinin kapitanı Nicat Müslümov iki kateqoriya üzrə döyüşlərə qatılıb. O, 75 kiloqram çəki dərəcəsində (K42) qızıl, 43 kateqoriyalı idmançıların yarışında gümüş medal əldə edib. Eyni kateqoriyada digər idmançımız Xəzər Mirzəyev və 75 kiloqramdan yuxarı çəki dərəcəsində çıxış edən Vüqar Adışirinov (K44) bürünc mükafata layiq görülüblər. Baş məşqçi Əvəz Tağıyevin və böyük məşqçi Yaşar Səfərovun yetirmələri komanda hesabında İran və Türkiyə komandalarından sonra üçüncü yerdə qərarlaşıblar.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
kapitan
Məhəmməd ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 715
Nüsxə 4600